**SABAH qruplarında təhsil alan tələbələrin yataqxanada yerləşdirilməsi və xaric edilməsinə dair**

**QAYDALAR**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar SABAH qruplarında təhsil alan tələbələrin yataqxanada yerləşdirilməsi və xaric edilməsi qaydalarını müəyyən edir.

1.2. SABAH qruplarında təhsil alan tələbələrin yataqxana ilə təmin olunması və onlara müvafiq xidmətlərin göstərilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin SABAH qrupları layihəsinin icrası üçün ayırdığı büdcə vəsaiti və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına təmin olunur.

1.3. SABAH qruplarında təhsil alan tələbələrin yataqxana ilə təmin olunması Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları rəhbər tutulmaqla bu Qaydalara müvafiq şəkildə həyata keçirilir.

## 2. Tələbələrin yataqxanada yerləşdirilməsi

2.1. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla, Azərbaycan Respublikasının digər bölgələrində qeydiyyatda olan tələbələr bu qruplarda təhsil aldıqları dövr ərzində yataqxanada yerləşdirilə bilərlər.

2.2. Tələbələr SABAH qruplarında təhsil aldıqları ilk tədris ili (II kurs) dövründə Azərbaycan Respublikası Təhsil Nazirliyi SABAH qrupları İcra Komitəsinə elektron müraciətləri əsasında yataqxanada yerləşdirilə (mövcud yerlərin sayına uyğun olaraq) bilərlər.

2.3. Aşağıda sadalanan meyarlara uyğun olan III və IV kurs tələbələri yazılı və ya elektron müraciətləri və təqdim olunan sənədlərin uyğunluğu əsasında (yataqxanada qız və oğlanlar üçün ayrılmış yerlərin sayına uyğun olaraq) yerləşdirilə bilərlər:

- 2.3.1. Valideynlərindən birini və ya hər ikisini itirmiş, valideyn himayəsindən məhrum olmuş 23 yaşınadək olan tələbələr, o cümlədən, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların, şəhid ailələrinin övladları, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş Azərbaycan Respublikasının vətəndaşlarının övladları;
- 2.3.2. Qaçqın və ya məcburi köçkün olan tələbələr və ya həmin ailələrin övladları;

2.3.3. Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müvafiq dərəcədən (I və II qrup) əlillik müəyyən edilməklə ən azı bir il müddətinə əmək qabiliyyətsiz hesab edilən tələbələr;

2.3.4. Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə işçiyə müvafiq dərəcədən (I və II qrup) əlillik müəyyən edilməklə ən azı bir il müddətinə əmək qabiliyyətsiz hesab edilən vətəndaşların övladları;

2.3.5. Müharibə, əmək, silahlı qüvvələr, daxili işlər, sərhəd xidməti və milli təhlükəsizlik orqanları veteranlarının övladları;

2.3.6. Hər iki valideyni Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin yerli orqanında işsiz kimi qeydə alınmış tələbələr;

2.3.7. 3 və daha çox uşağı olan ailələrin övladları;

2.3.8. SABAH qruplarında təhsil ilə əlaqəli olaraq, Azərbaycan Respublikasının digər bölgələrində yerləşən ali təhsil müəssisələrindən SABAH baza ali təhsil müəssisələrinə köçürülmüş və həmin bölgələrdə qeydiyyatda olan tələbələr;

2.4. III və IV kurs tələbələrinin yataqxanada yerləşdirilməsi II kurs tələbələrinin yerləşdirilməsi başa çatdıqdan sonra bu Qaydaların 2.3.-cü bəndi üzrə meyarların göstərilən ardıcıllığına müvafiq aparılır.

2.5. Müraciət etmiş namizədlərin sayı mövcud yerlərin sayından çox olduqda, eyni meyarlara cavab verən tələbələr arasından SABAH qruplarında təhsil dövrü ərzində ümumi orta müvəffəqiyyət göstəricisi daha yüksək olan tələbəyə üstünlük verilir.

2.6. Bu Qaydaların 2.2 və 2.3-cü bəndlərinə müvafiq yerləşdirilmə başa çatdıqdan sonra boş qalan yerlərə yerləşdirilmə tələbələrin SABAH qruplarında təhsil dövrü ərzində ümumi orta müvəffəqiyyət göstəricisi əsasında aparılır.

## 3. Tələbələrin yataqxanadan xaric olunması

3.1. Xəstəliklə əlaqədar hər hansı tələbənin digərləri ilə birgə yaşayışı mümkün olmadıqda dərhal, aşağıdakı hallarda isə 1 ay öncədən xəbərdarlıq edilməklə yataqxanadan xaric olunur:

3.1.1. Yataqxananın müvafiq daxili qaydalarına əsasən yataqxanada davranış və nizam-intizam qaydaları ciddi və müntəzəm pozduqda;

3.1.2. Bayram günləri və tətil müddəti istisna olmaqla, üzrsüz səbəbdən 1 ay ərzində 15 gündən az yataqxanada qaldıqda;

3.1.3. Hər hansı səbəbdən SABAH qruplarında təhsili dayandırıldıqda.